# Azərbaycan Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsinə qoşulur

İyunun 19-da Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirildi. Milli Məclisin Sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov gündəlikdə "Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsi"nə qoşulmaq haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin olduğunu bildirdi.

Ziyafət Əsgərov qeyd etdi ki, Beynəlxalq Hərbi Tibb Komitəsinin yaranması zərurəti Birinci Dünya müharibəsindən sonra ortaya çıxıb. Bu ideya Belçika tərəfindən dəstəklənib və 1921-ci ildə komitə yaranıb. Beynəlxalq Hərbi Tibb Komitəsinin qərargahı Brüssel şəhərində yerləşir.

Beynəlxalq əlaqələrdə dəyişikliklərə səbəb olan hadisələrin gedişatı Beynəlxalq Hərbi Tibb Komitəsini 1990-cı il 28 aprel tarixində keçirilən Baş Assambleya zamanı Nizamnaməsini yenidən nəzərdən keçirməyə qərar verilməsi ilə nəticələnib. Yeni Nizamnamə 1921-ci ildə qurum təsis edilərkən təməlini təşkil edən və bugünədək Beynəlxalq Komitənin bütün fəaliyyətini tənzimləyən fundametal prinsiplərə əsaslanır.

Qeyd olundu ki, müzakirə olunan qanun layihəsi də Azərbaycanın 2013-cü ildə düzəliş edilmiş bu Nizamnaməyə qoşulması ilə bağlıdır.

Müzakirələr zamanı deputatlar bu məsələnin ölkəmizin milli maraqlarına uyğun olduğunu bildirdilər və qanun layihəsi Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.- 20 iyun.- S.3.